Ədəbiyyat:
1. Qida təhlükəsizliyi haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 5 may 2022-ci il, №523-VIQ
2. Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin yaradılması haqqında. Azərbaycan Respublikası Prezidentinin 10 fevral 2017-ci il tarixli Fərmanı.
3.Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında. Azərbaycan Respublikası Prezidentinin 13 noyabr 2017-ci il tarixli Fərmanı.
4.Azərbaycan Respublikasında qida təhlükəsizliyinin təmin edilməsinə dair 2019–2025-ci illər üçün Dövlət Proqramı. Bakı şəhəri, 29 aprel 2019-cu il. № 1143.
5.Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi. 6 dekabr 2016-cı il.
6.Azərbaycan Respublikasinin Dövlət Standarti. AZS ISO 22000. 2021.
7. Təhlükəsiz qida ilə sağlam gələcəyə! URL: https://afsa.gov.az/az/haqqinda
8. Ərzaq təhlükəsizliyinin təmin edilməsi cəmiyyətin inkişafının mühüm şərtidir. URL: https://serqqapisi.gov.az/xeberler/erzaq-tehlukesizliyinin-temin-edilmesi-cemiyyetin-inkisafinin-muhum-sertidir

## MƏKTƏBƏQƏDƏR TƏHSİLİN YENİ MƏZMUNU VƏ KADR HAZIRLIĞI MƏSƏLƏLƏRİ

*İsmayılova İlhamə Şubay qızı,*
*İsmayılova Aygün İslam qızı*
*Mingəçevir Dövlət Universiteti*

Müasir dövrdə həyatın bütün sahələrində dəyişikliklər olduğu kimi, təhsil sahəsində də böyük dəyişiklər aparılır. Deməli, məktəbəqədər təhsil də bu dəyişikliklərdən kənarda qalmamışdır və bu dəyişikliklər məktəbəqədər təhsil müəssisələrində çalışan tərbiyəçilərin fəaliyyətinə müsbət təsir etməlidir.

Məktəbəqədər təhsilin dövlət standartlarının reallaşdırılması ilk növbədə təlim prosesinin bütün iştirakçılarından onun reallaşdırması ideologiyasına, tətbiq edilən yanaşmalara düzgün münasibət tələb edir. Bu prosesdə əsas rol onun məktəbəqədər təhsil müəssisələrində onun reallaşdırılmasını təmin edən rəhbərliyə aiddir.

Hazırki dövrdə kreativliyə, yenilikdən istifadə etməyə və onu yaratmağa hazır olan, təcrübi-eksperiment, işlərini aparmağı bacaran məktəbəqədər təhsil müəssisə tərbiyəçilərinin səriştəliliyinin formalaşması; yaradıcılığının inkişaf etdirilməsi problemi mövcuddur. Məktəbəqədər müəssisələrdə metodiki iş xüsusi yer tutur. Metodiki işin keyfiyyətinin yüksəlməsi üçün də tərbiyəçi şəxsiyyətinin aktivləşdirilməsi lazımdır ki, bu da onun yaradıcı fəaliyyətinin inkişafına səbəb olur. Bu baxımdan tərbiyəçilərin vaxtaşırı ixtisasının artırılması sahəsində işlərin aparılması lazımdır.

Standartların reallaşdırıldığı şəraitə xüsusi diqqət yetirmək lazımdır. Aparılan təhlillər konkret problemləri görməyə və onları aradan qaldırmağa imkan verir. İstənilən işin nəticəsi işi kimin və necə görməsindən asılıdır. Məhz bu prosesin

iştirakçılarının peşəkarlığı və istəyi nəticənin keyfiyyətini təmin edir.

Məktəbəqədər təhsil üzrə dövlət standartlarının realizəsi məktəbəqədər müəssisələrdə çalışan pedaqoji işçinin bu prosesə hazırlığından birbaşa asılıdır. Məktəbəqədər təhsil müəssisələrində çalışan pedaqoji işçinin peşəkar səriştəliliyinin məcmusuna metodoloji, psixoloji –pedaqoji, kommunikativ, tədqiqatçılıq, təqdimetmə, İKT – bacarıqları daxildir.

Yeni məzmunun reallaşdırmasında pedaqoqun metodoloji səriştəliliyi fəaliyyətə sistemli yanaşmadır. Fəaliyyətə sistemli yanaşmanın tətbiqi məktəbəqədər müəssisədə uşaq şəxsiyyət iylə tərbiyəvi qarşılıqlı təsirə üç mövqedən baxmağı pedaqoqun bacarığı güman edir:

Birincisi-bu bütün məktəbəqədər təhsil müəssisələrinin pedaqoji kollektivi və hər bir pedaqoqu bütün amillərin və uşaqların inkişaf prosesinə məktəbəqədər təhsil sisteminin təsirini qaydaya salmağa çalışdığı tərbiyə sistemidir.

İkincisi –pedaqoji təsirin çox olduğu qrupun tərbiyəvi məkanıdır.

Üçüncüsü –uşağın fərdi inkişaf trayektoriyasının təminidir. ( fərdi təlim qarşısında)

Fəaliyyətyönümlü yanaşmanın mahiyyəti ondan ibarətdir ki, diqqət mərkəzində böyüklərə birgə ( əməkdaşlıq) faəliyyəti və uşaqların birgə işi nəticəsində nail olduqları nəaliyyət durur.

Hal-hazırda məktəbəqədər təhsil müəssisələrində çalışan pedaqoji işçinin tədqiqatçılıq səriştəliliyinin vacib tərkib hissəsi onun zəruri məlumatları axtarıb tapmaq bacarığı və onu öz müəssisəsində, öz qrupunda tətbiq etməsidir. Təqdimetmə səriştəliliyi öz peşəkar fəaliyyətində qabaqcıl təcrübəni təqdimetməsində, bu barədə çap etdirdiyi məqalələrində, müxtəlif səviyyəli konfranslarda çıxışında, məktəbəqədər təhsilin aktual problemləri haqqında təqdimatlarda və s. əks olunur.

Məktəbəqədər təhsil müəssisəsi və pedaqoji işçi üçün tələblər uşaqların tərbiyəsinin məqsəd və vəzifələrində öz ifadəsini tapır. Həmin vəzifələr məqsədyönlü fəaliyyət prosesində həyata keçirilir. Yeni məzmunun reallaşdırılması prosesində pedaqoji işçi qarşıya qoyduğu məqsədi yerinə yetirmək üçün bilik və bacarıqlara yiyələnməsi zəruridir. Yeni məzmunun reallaşdırılması prosesində fikir aydınlığı, tələbkarlıqda ardıcıllıq kimi keyfiyyətlərlə yanaşı, motivlərin böyük əhəmiyyəti var ki, burada da əsas məqsəd motivi hərəkətə gətirməkdir.

Məktəbəqədər təhsil müəssisələrində pedaqoji prosesin idarə olunmasmda iştirak edən kadrların müasir tələblərə cavab verən səviyyədə hazırlanması üçün, onları pedaqoji fəaliyyətin səmərəli idarəetmə prosesinə daxil edərək, özünüreallaşdırması və şəxsi inkişafının təmin olunmasına şərait yaradılmalıdır. Belə fəaliyyət mütəxəsislərin özünütəyininə, pedaqoji texnologiyaların mənimsənilməsinə, onun yaradıcılıqla istifadə edilməsinə və pedaqoji prosesin səmərəli idarə olunmasına tələbatın öyrənilməsi və onun dəyişdirilməsinə olan ehtiyacların aradan qaldırılmasına və pedaqoji fəaliyyətin yaxşılaşdırılmasına imkan verir.

Məktəbəqədər təhsil müəssisəsinin lokal aktlarının hazırlamasına ehtiyac vardır. Bunun üçün əməkdaşların vəzifələrində təlimatlara uyğun dəqiqləşdirmələr aparmaq lazımdır. Məktəbəqədər təhsil müəssisəsinin xüsusiyyətlərinin hesaba alınması zamanı məktəbəqədər təhsilin təlimedici proqramının hazırlamasının

alqoritmini fikirləşməyə pedaqoji kollektivin, sorğuların və valideynlərin imkanlarını nəzərə almaq vacibdir.

Standartların tələblərinə uyğun olan şəraitin təhlilinə xüsusi diqqət yetirmək lazımdır. Aparılmış təhlil mövcud problemləri görməyə və onların həlli yollarını müəyyən etməyə imkan verəcəkdir. İstənilən işin nəticəsi ondan asılıdır ki, bunu kim necə görür və həyata keçirir. Məhz bacarıq, peşəkarlıq və icraçıların arzusu keyfiyyətli nəticəni təmin edir. Yeni məzmunun tələblərinin reallaşdırılması prosesi məktəbəqədər təhsil sahəsində çalışan pedaqoji işçinin hazırlığından birbaşa asılıdır. Pedaqoji işçi dərin elmi, siyasi və pedaqoji nəzəriyyələrə yiyələnməli, yorulmaz əqidəyə malik olmalıdır. Məktəbəqədər təhsil müəssisələrində pedaqoji işçi geniş məlumata, yüksək mədəniyyətə malik olmalı, tərbiyə, təlim, təhsil vermək metodikasına dərindən yiyələnməlidir. Bunun üçün o, pedaqogikanı, məktəbəqədər pedaqogikam, psixologiyanı, ixtisas metodikalarını dərindən bilməli, qabiliyyət, bacarıq və vərdişlərə yiyələnməlidir. Pedaqoji qabilliyət, bacarıq və vərdişlərə malik olan pedaqoji işçi təlim-tərbiyəni müasir tələblər səviyyəsində həyata keçirə bilər. Məktəbəqədər təhsil müəssisələrində çalışan pedaqoji işçinin peşəkarlıq bacarığı sisteminə tədqiqatçılıq, ünsiyyət, təqdimat etmə, İKT-bacarığı daxil edilir.

Məktəbəqədər təhsil müəssisələrində çalışan pedaqoji işçinin tədqiqatçılıq bacarığı, praktik fəaliyyətdə təlimedici prosesin təşkilinin tədqiqat və təcrübi-eksperimental metodlarını tətbiq etmək bacarığı olmalıdır. Tədqiqatçılıq bacarığı hər bir pedaqoji işçini yeni pedaqoji yaradıcılığa və axtarıcılığa təhrik edir. Buna birdən-birə deyil, uzun müddətli axtarış və yaradıcılıq prosesində yiyələnir.

Ünsiyyət bacarığı təlim prosesinin bütün iştirak. ınm pozitiv qarşılıqlı nəticəli fəaliyyətin həyata keçirilməsinə  imkan praktik ünsiyyət üsullarından ibarətdir. Pedaqoji işçinin ünsiyyət bacarığı o deməkdir ki, bütün iştirakçılarla (uşaqlar, valideynlər və ailənin digər üzvləri, pedaqoqlarla) qarşılıqlı pozitiv münasibət yaradır. Bu qabiliyyət hər bir uşağın pedaqoqa, öz yoldaşlarına necə münasibət bəslədiyini, uşaqlar arasında yoldaşlıq və dostluq münasibətlərinbı necə formalaşmasını aşkar etməyə imkan verir.

Pedaqoqun təqdimat bacarığı dedikdə jurnallarda, maarifləndirici saytlarda, müxtəlif pedaqoji konfranslarda məqalələrin nəşri və s. öz peşəkar fəaliyyətinin müsbət təcrübəsini təqdim etmək bacarığı kimi ifadə edilir.

Tərbiyəçilərin və tərbiyə edilənlərin qarşısına dəqiq məqsəd qoymadan, tərbiyənin məqsədlərini onların daxili tələbatlarına uyğunlaşdırmadan cəmiyyətin müasir tələblərinə cavab verən, özünün gələcək peşəkar fəaliyyətinin xüsusiyyətlərinə müvafiq şüurlu, hərtərəfli inkişaf etmiş mütəxəssislərin müvəffəqiyyətlə yetişdiriləcəyini təsəvvürə gətirmək qeyri-mümkündür.

Tərbiyəçilərin peşəkarlığının təkmilləşdirilməsi bir neçə istiqamətlərdə həyata keçirilə bilər:

tərbiyəçilərin ixtisas üzrə tələbatlarının üzə çıxarılması əsasında onların ixtisas hazırlığının təhlili, fəaliyyətlərinin nəticələrinin öyrənilməsi və tələbatdan asılı olaraq, onların ixtisas təkmilləşdirilməsinin müxtəlif formalarına cəlb edilməsi

(həm məktəbəqədər təhsil müəssisəsi, həm də rayon, şəhər bazasında);

- müəsisə bazasında aşağıdakıları nəzərə alan ixtisas təkmilləşdirmə

proqramının hazırlanması;

- uşaqların tədris və tərbiyə məsələləri, müasir elm və təcrübənin nailiyyətləri nəzərə alınmaqla onların həyata keçirilməsi yolları;

- tərbiyəçilərin təcrübi-eksperimental istiqamətlərinə uyğun tədqiqat fəaliyyətinə cəlb edilmə imkanları;

- təlimin məzmun və formasının üzvi rabitəsinin və sosial əməkdaşlıq şəraitində yenilikçi təcrübənin yaradılması üzrə təcrübi fəaliyyətin təmin olunması;

- fəaliyyətin bütün mərhələlərində işə mütəxəssislərin cəlb olunması innovasiyalı müəssisə modelinin layihə və konsepsiyasının hazırlanmasından onun həyata keçirilməsinə kimi.

Artıq axırıncı istiqamət tərbiyəçiləri daim "təlim rejimində" olmağa vadar edir. İş prosesində yeni biliklərlə, mütəxəssislər tərəfindən təklif olunan proqram materiallarına yiyələnməyin üsulları ilə köklənməyə zərurət yaranır. Məktəbəqədər təhsil müəssisələrində çalışan hər bir təcrübəli tərbiyəçi işini aşağıdakı şəkildə qurmağı bacarmalıdır:

- daim yenilik axtarışında olmalı və öz üzərində çalışmalıdır;

- təlim zamanı uşaqların fəalliğınm inkişafını ön planda saxlamalı, məşğələləri yeni təlim metod və texnologiları əsasında təşkil etməlidir;

-uşağı öyrədərkən yalnız məlumat verməklə kifayətlənməməli, onlara "öyrənməyi öyrətmək" bacarığını aşılamalıdır;

-özünəhörmət, özünəinam hissinin inkişafına çalışmalıdır;

- yaradıcı olmalı və uşaqlarda da yaradıcı düşüncəni inkişaf etdirməyə çalışmalıdır;

- uşaqlarda sərbəst düşünmə, müstəqil qərarvermə bacarıqlarının inkişafına təkan verən üsullardan istifadə edərək, bu istiqamətdə dəstəkləyici mühit yaratmalıdır.

Böyük rus pedaqoqu K.D.Uşinski yazırdı ki, ...uşaqların təbiəti bir birinə oxşamır. Buna görə biz pedaqoqlara ...tərbiyə etdikləri uşaqları və onları əhatə edən şəraiti öyrənməyi, hər zaman ağlına gələ bilməyən müxtəlif pedaqoji tədbirlərin tarixini öyrənməyi məsləhət görürük. Buna görə də tərbiyəçi hər zaman öz üzərində işləməli, daim öyrənməlidir.[3]

Tərbiyəçilərin peşəkarlığının artırılması işi istiqamətlər üzrə ayrılmalı və növbəti əsas tələbləri qorumalıdır:

- təcrübi xarakteri daşımalı;

- öz işində elmi tətqiqat və aparıcı (innovasiyalı) pedaqoji təcrübələləri inteqrasiya etməlidir:

- fərdi- differensial yanaşmam (tərbiyəçilərin imkan və ixtisas maraqlarını nəzərə alan) təmin etməlidir;

- biliklərin mənimsənilməsinin aktivləşməsinə və ixtisas bacarıqlarının möhkəmlənməsinə əsas yaratmalıdır;

- ixtisasın artırılmasının nəticəliliyini qiymətləndirmək və bu prosesə vaxtında düzəliş vermək;

- sistemli və kompleks yanaşmanı təmin etmək. [2]

Tərbiyəçinin fəaliyyət və şəxsiyyətini öyrənmək metodiki işin effektivliyini və

keyfiyyətinin artırılması üçün lazımı yanaşmadır.

Uşaqların təlim və tərbiyə işinin nəticəsinin yüksəldilməsində tərbiyəçiyə kömək etmək yalnız gələcək təkmilləşmə işlərinin hərtərəfli nəzərə alınması şəraitində deyil, həm də hər bir tərbiyəçinin real imkanları daxilində mümkündür. Çünki eyni uşaq bağçasında işləyən iki tərbiyəçi uzun illər birgə işləsələr belə, nəzəri və metodiki baxımdan eyni hazırlıq səviyvosində olmurlar.

Təkmilləşmənin yüksəldilməsinin forma və metodlarının seçilməsi böyüklərin bilik fəaliyyətinin psixoloji xüsusiyyətləri ilə bağlıdır.

Tərbiyəçilərin iş zamanı hazırda təklif olunan bir çox forma və metodlardan bəzilərinin üzərində dayanmaq olar:

-Dialoq formalı mühazirələr dinləyicinin düşüncə və dərketmə fəaliyyətini aktivləşdirir. Belə mühazirələr zamanı raöv zunun məzmunu izah edilir və məsələlər birgə araşdırılır.

-Problemli mühazirələr dinləyiciləri ayrı -ayrı qaydaların sübutuna və nəticə çıxarmağa cəlb edir.

-Müsahibə - seminarlar sual formalaşdırmaq, nəticə çıxartmaq və məsləhət vermək kimi bacarıqların nkişafına böyük təsir göstərir.

-Seminar – yaradıcı məşğələ innovasiyalı layihələrin yaradılması və yaradıcı düşüncənin inkişafına yönəldirir.[4]

Problemli situasiyanın kollektiv həllini yerinə yetirən qrupla diskussiya, beyin həmləsi, ixtisas bacarıqlarının təkmilləşdirilməsi üzrə kiçik qruplarla treninqlər, innovativ fəaliyyətinin nəticələri üzrə elmi – praktik konfrans kimi metod və formalardan istifadə olunur.

Məktəbəqədər təhsil üzrə dövlət standartlarının müvəfəqiyyətli reallaşdırılması pedaqoqda onun hazırlığını bacarığını müəyyən edən səriştəliliyin mövcudluğu güman edir:

Hər bir uşağın emosional əmin- amanlığını təmin etmək;

müxtəlif fəaliyyət növlərində uşaqların konstruktiv qarşılıqlı təsirini təşkil etmək, birgə fəaliyyətin iştirakçıları üçün sərbəst seçim üçün şərait yaratmaq:

inkişafetdirici variativ təhsil təşkil etmək;

uşağın yaxın inkişaf zonasında işləmək;

uşaq təşəbbüsünə direktiv dəstəyi göstərməmək, oyun vaxtım və transformasiya edilən polifunksional mühitin təşkilini təmin etmək.

Bacarıqlar:

təlim prosesində onların psixoloji-yaş və fərdi xüsusiyyətlərinə uyğun olan əməkdaşlığın forma və metodlarından istifadə etmək;

hər bir uşağın maraq və imkanlarına istiqamətlənmiş böyüklərlə qarşılıqlı təsir əsasında təlim prosesinin təşkili;

həmyaşıdları, həmçinin müxtəlif yaşlı uşaqların müxtəlif fəaliyyət növlərində bir-birinə müsbət, xeyirxah münasibətini dəstəkləmək;[1]

Beləliklə, təlim prosesində təlim-tərbiyə məqsədlərini müvəffəqiyyətlə həll etmək üçün tərbiyəçinin fərdi psixoloji, yaş və sosial-psixoloji xüsusiyyətlərinin ali təhsilli müasir məktəbəqədər təhsil üzrə mütəxəssis üçün zəruri olan ayrı-ayrı keyfiyyət və xüsusiyyətlərinin məzmun və strukturunun nəzərə alınması, metodoloji

və professional hazırlığmin optimal nisbətdə olması, uşaqlarla qarşılıqlı münasibətlərinin eyni məqsədlərə can atması tələb olunur. Pedaqoqlann pedaqoji məharəti, onların təlimə düzgün istiqamət verməsi, məşğələnin tərbiyəvi imkanlarından yaradıcılıqla istifadə etmək bacarığı, tərbiyə ilə təlim arasında vəhdətdə nail olmağın, uşaq şəxsiyyətinin müvəfəqiyyətlə formalaşmasının zəruri şərtləridir.

Ədəbiyyat:

1. Cəfərova L. Məktəbəqədər təhsilin yeni məzmunu və idarə olunması məsələləri. Bakı Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutunun Təhsil Texnologiyaları Mərkəzinin nəşriyyatı 2016, 250 səh.
2. Əhmədov A.Ə., Abbasov Ə.M. Məktəbəqədər təhsilin konseptual problemləri. Kurikulum, 2011, № 2, səh.8-15.
3. Mehrabov A.O. Müasir təhsilin konseptual problemləri. B., Mütərcim, 2010, 512 s.
4. Kərimov Y.Ş. Təlim metodları. Bakı, 2009, 280 s.

## FRANSIZ DILINDƏ FRAZEOLOJI BIRLƏŞMƏLƏRIN FAKTLARI

*Məmmədova Leyla Zülfiqar qızı*
*Mingəçevir Dövlət Universiteti*

M.D.-yə görə, Stepanova, frazeoloji vahid, komponentlərin vahid uyğunluğu ilə müxtəlif struktur tipli sözlərin ayrıca formalaşmış, sabit birləşməsi kimi başa düşülür, mənası komponent tərkibinin tam və ya qismən semantik yenidən nəzərdən keçirilməsi nəticəsində yaranır.

İndi frazeoloji vahidlərin xüsusi xüsusiyyətlərinə baxacağıq:

1. Frazeologizmlər öz tərkibinə görə həmişə mürəkkəb olur, çünki onlar çox vaxt ayrıca vurğuya malik olan, lakin eyni zamanda müxtəlif sözlərin ayrı-ayrılıqda mənasını qoruyub saxlaya bilməyən müxtəlif komponentlərin birləşməsi yolu ilə yaradılır (məsələn, qan və süd, beyninizi döyün);

2. Frazeologizmlər həmişə semantik bölünməzdir, çünki onlarda tez-tez bir sözlə ifadə oluna bilən fərqlənməmiş məna (məsələn, ağlı yaymaq, yəni düşünmək; pişik ağladı, yəni bir az və s.);

3. Frazeologizmlər müxtəlif sadə frazalardan fərqli olaraq tərkibinin müəyyən sabitliyi ilə xarakterizə olunur. Yəni, frazeoloji vahidin bu və ya digər komponentini oxşar sözlə əvəz etmək olmaz, sadə ifadələrdə bu mümkün olduqda (məsələn, "pişik ağladı" əvəzinə "pişik ağladı" deyə bilmərik, nə vaxtsa, məsələn, "Mən jurnal oxuyuram" ifadəsində "Mən oxuyuram" sözünü əvəz edə bilərik, amma bax, öyrən və məna dəyişməyəcək);

4. Frazeologizmlər də təkrarolunma qabiliyyəti ilə seçilir, yəni bizim tərəfimizdən bilavasitə nitqin özündə həyata keçirilir

5.Çox vaxt frazeoloji vahidlər tərkibinin keçilməzliyi ilə xarakterizə olunur, yəni strukturuna heç bir söz əlavə etmirik (məsələn, "aşağı baxmaq" deyərkən aşağı, kədərli və bu kimi sözləri əlavə etmirik);